# Daniel

*Peyğəmbərin Kitabı*

***Giriş***

*«Daniel»* Kitabı yəhudi xalqının Babil və Fars imperatorluqlarının hakimiyyəti altında olduğu dövrdən bəhs edir.

Kitab iki əsas hissəyə bölünür. İlk hissədə Daniel və onunla birgə əsir olan üç gənc soydaşının hekayəti nəql edilir. Onlar Allaha e'tibar edib itaətkar olmaqla düşmənlərinə qalib gəlir. İkinci hissədə isə Danielin görüntüləri təsvir olunur. Rəmzlər şəklində Babildən başlayaraq bir neçə imperatorluğun uğuru və süqutu, zülmkarın məhv olması və Allah xalqının qələbəsi barədə danışılır.

***Kitabın məzmunu:***

Daniel və onun dostları 1:1-6:28
Danielin görüntüləri 7:1-12:13
Dörd heyvan 7:1-28
Qoç və təkə 8:1-9:27
Səmavi mələk 10:1-11:45
Axır zaman 12:1-13

## *Daniel və onun yoldaşları Babil sarayında*

1 1 Yəhuda padşahı Yehoyaqimin
padşahlığının üçüncü ilində Babil
padşahı Navuxodonosor Yerusəlimə hücum
edib oranı mühasirəyə aldı. 2 Xudavənd
Yəhuda padşahı Yehoyaqimi və Allah
mə'bədinin əşyalarından bir hissəsini ona
təslim etdi. Navuxodonosor onları Şinar
torpağına, öz allahının mə'bədinə apardı və
əşyaları həmin mə'bədin xəzinəsinə qoydu.
3 Padşah hərəmağalar rəisi Aşpenaza əmr
etdi ki, padşah nəslindən və zadəganlardan
olan İsraillilərin arasından 4 bədənlərində
qüsur olmayan, yaraşıqlı, hər elmdən xəbərdar,
bilikli, dərrakəli, sarayda padşaha xidmət
etməyə layiq olan cavanlar seçərək onlara
Xaldeylilərin dilini və ədəbiyyatını öyrətsin.
5 Padşah onlara özünün yediyi yeməklərdən
və içdiyi şərabdan gündəlik yemək payı tə'yin
etdi ki, üç il onlara tərbiyə versinlər və sonra
isə padşahın xidmətinə gətirsinlər. 6 Onların
arasında Yəhuda nəslindən olan Daniel,
Xananya, Mişael və Azarya var idi.
7 Hərəmağalar rəisi onlara yeni ad qoydu:
Danieli Belteşassar, Xananyanı Şadrak,
Mişaeli Meşak və Azaryanı Aved-Neqo
adlandırdı.
8 Daniel qərara aldı ki, padşahın yediyi
yeməklərlə və içdiyi şərabla özünü murdar
etməsin. Buna görə də özünü murdar
etməmək üçün hərəmağalar rəisinə müraciət
etdi. 9 Allah hərəmağalar rəisinin gözündə
Danielə lütf və rəğbət qazandırdı.
10 Hərəmağalar rəisi Danielə dedi: «Sizin
yeyib-içdiyinizi tə'yin edən ağam padşahdan
qorxuram. Nə üçün o sizin simanızı
həmyaşıdınız olan cavanların simasından
solğun görsün? Siz bununla padşahın yanında
həyatımı təhlükə altına qoyursunuz». 11 Daniel
hərəmağalar rəisinin özü, Xananya, Mişael və
Azaryanın üzərinə qoyduğu mə'mura dedi:
12 «Gəl qullarını on gün ərzində yoxla. Qoy
bizə yemək üçün göyərti, içmək üçün su
versinlər. 13 Sonra isə sənin hüzurunda həm
bizim üzümüzə, həm də padşah
yeməklərindən yeyən cavanların üzünə
baxsınlar. Bunu gördəndən sonra qullarınla
necə istəyərsən, elə də rəftar edərsən».
14 Mə'mur bu məsələdə cavanların sözünə
qulaq asdı və onları on gün yoxladı. 15 On gün
sonra onların siması padşah yeməklərindən
yeyən başqa cavanların simasından daha
gözəl göründü və onlar bədəncə daha dolğun
idi. 16 Onda mə'mur cavanların yeməyini və
içəcəkləri şərabı götürüb onlara göyərti verdi.
17 Allah bu dörd gəncə hər cür ədəbiyyatı və
elmi öyrənmək üçün bilik və dərrakə verdi.
Daniel isə hər cür görüntüləri və yuxuları
yozmağı bacarırdı. 18 Onların gətirilməsi üçün
padşahın əmr etdiyi gün çatanda hərəmağalar
rəisi onları Navuxodonosorun hüzuruna
gətirdi. 19 Padşah onlarla danışdı və hamının
arasında Daniel, Xananya, Mişael və Azarya
kimisi tapılmadı. Onlar padşahın hüzurunda
xidmətə qoyuldu. 20 Padşah onlardan hər cür
elm və bilik barədə soruşanda gördü ki,
bunlar ölkəsindəki sehrbazların və
ruhçağıranların hamısından on qat üstündür.
21 Daniel padşah Kirin hökmranlığının birinci
ilinə qədər orada qaldı.

## *Navuxodonosorun yuxusu*

2 1 Navuxodonosor padşahlığının ikinci
ilində bir yuxu gördü, buna görə ürəyi
sıxıldı və yuxusu qaçdı. 2 Padşah əmr etdi ki,

---

***1:1*** *– 2Pad. 24:1; 2Saln. 36:5-7*
***1:2-4*** *– 2Pad. 20:17-18; 24:10-16; 2Saln. 36:10; Yeş. 39:7-8*

yuxusunu yozmaq üçün onun yanına
sehrbazlar, ruhçağıranlar, cadugərlər və
münəccimlər çağırılsın. Onlar gəlib padşahın
hüzurunda dayandı. 3 Padşah onlara dedi: «Bir
yuxu görmüşəm və ürəyim sıxılır. İstəyirəm
ki, bu yuxunun yozumunu bilim».
4 Münəccimlər Arami dilində padşaha dedi:[1]
«Padşah sağ olsun, yuxunu bu qullarına danış,
biz də onu yozaq». 5 Padşah münəccimlərə
cavab verdi: «Mən belə qərara gəlmişəm: əgər
siz mənə həm yuxunu, həm də yozumunu
söyləməsəniz, parça-parça ediləcəksiniz və
evləriniz də viran ediləcək. 6 Əgər yuxunu və
yozumunu söyləsəniz, məndən hədiyyələr,
mükafatlar və böyük hörmət görəcəksiniz.
İndi isə mənə yuxunu və yozumunu söyləyin».
7 Onlar yenə cavab verdi: «Padşah yuxunu bu
qullarına danışsın, biz də onu yozaq».
8 Padşah cavab verdi: «Yəqin bilirəm ki, siz
vaxt qazanmaq istəyirsiniz, çünki görürsünüz
ki, mənim qərarım qətidir. 9 Əgər yuxunu
mənə söyləməsəniz, sizin üçün yalnız bir cəza
olacaq. Siz mənə yalan və uydurma sözlər
demək üçün sözləşmisiniz ki, bəlkə vəziyyət
dəyişdi. İndi isə mənə yuxunu söyləyin, onda
bilərəm ki, siz onu yozmağa qadirsiniz».
10 Münəccimlər padşaha cavab verdi: «Yer
üzündə padşahın tələbini yerinə yetirə bilən
adam yoxdur. Ən əzəmətli və qüdrətli padşah
da bir sehrbazdan, ruhçağırandan yaxud
münəccimdən belə bir şey istəməyib.
11 Padşahın istədiyi şey elə çətindir ki,
allahlardan başqa heç kəs bunu padşaha aşkar
edə bilməz. Onların da məskəni insanlar
arasında deyil». 12 Padşah bu sözə özündən
çıxıb bərk qəzəbləndi və əmr etdi ki, bütün
Babil müdriklərini məhv etsinlər.
13 Müdrikləri öldürmək barədə əmr çıxanda
Danieli və onun yoldaşlarını öldürmək üçün
axtardılar.

14 O zaman Daniel Babil müdriklərini
öldürməyə gedən padşahın keşikçilər rəisi
Aryokla müdriklik və nəzakətlə danışdı. 15 O,
padşahın hərbi rəisi olan Aryokdan soruşdu:
«Niyə padşah belə sərt fərman verib?» Onda
Aryok əhvalatı Danielə danışdı. 16 Daniel içəri
girib padşahdan xahiş etdi ki, yuxunun
yozumunu padşaha bildirmək üçün ona vaxt
versin.

17 Daniel öz evinə qayıdıb əhvalatı dostları
Xananya, Mişael və Azaryaya danışdı ki, 18 bu
sirr barədə göylərin Allahından mərhəmət
diləsinlər və Daniellə onun yoldaşları başqa
Babil müdrikləri ilə birgə məhv olmasın. 19 O
zaman bu sirr Danielə gecə gələn görüntüdə
aşkar oldu, buna görə də Daniel göylərin
Allahına şükür etdi.

20 Daniel dedi: «Allahın adı əbədi olaraq
izzətlənsin! Çünki hikmət və qüdrət Ona
məxsusdur. 21 Vaxtı və dövrü dəyişdirən Odur.
O, padşahları taxtdan salar və taxta qoyar,
müdriklərə hikmət, aqillərə ağıl verər. 22 Dərin
və gizli sirləri O açar, qaranlıqda qalanı O
bilər. İşıqla əhatə olunan Odur. 23 Ey
atalarımın Allahı, Sənə şükür və həmd olsun
ki, mənə hikmət və qüdrət verdin, Səndən
dilədiyimiz şeyi mənə aşkar etdin. Beləcə
padşahın məsələsini bizə bildirdin».

### *Danielin yuxunu yozması*

24 Bundan sonra Daniel Babil müdriklərini
öldürmək üçün padşahın tə'yin etdiyi
Aryokun yanına gəlib ona dedi: «Babil
müdriklərini öldürmə. Məni padşahın yanına
apar, yuxusunu yozum». 25 Onda Aryok
Danieli tez padşahın yanına gətirib ona dedi:
«Mən sürgün olunmuş Yəhudalılar arasından
padşaha yuxunu yoza bilən bir adam tapdım».
26 Padşah Belteşassar adlanan Danieldən
soruşdu: «Gördüyüm yuxunu və yozumunu
mənə söyləyə bilərsənmi?» 27 Daniel padşahın
önündə cavab verdi: «Padşahın soruşduğu
sirri müdriklər, ruhçağıranlar, sehrbazlar və
əlamət baxıcıları ona aça bilməz. 28 Ancaq
göylərdə sirləri açan bir Allah var və
gələcəkdə nə olacağını padşah
Navuxodonosora O bildirdi. Yatarkən
gördüyün yuxu və görüntü belə idi:

29 Ey padşah, sən öz yatağında düşünürdün
ki, bundan sonra nə olacaq? Sirləri Açan da
nə olacağını sənə göstərdi. 30 Mənə bu sirr
başqa adamlardan müdrik olduğum üçün
açılmadı, yalnız yuxu padşaha bildirilsin və
sən də öz ürəyinin düşüncələrini biləsən deyə
bu sirr mənə açıldı.

31 Ey padşah, sən yuxuda böyük bir heykəl
görmüsən. Nəhəng və çox parlaq olan bu
heykəl sənin önündə dururdu, onun görünüşü
qorxunc idi. 32 Bu heykəlin başı xalis qızıldan,
sinəsi və qolları gümüşdən, qarnı və budları
tuncdan idi. 33 Baldırları dəmirdən, ayaqlarının

---

[1] **2:4** 2:4-7:28-ə qədər mətn arami dilində yazılmışdır.

bir hissəsi dəmirdən, bir hissəsi isə gildən idi.
34 Sən baxdığın zaman əl dəymədən bir daş
yerindən qoparıldı, heykəlin dəmir və gil
ayaqlarından vurub onları parça-parça etdi.
35 O zaman dəmir, gil, tunc, gümüş və qızıl
birlikdə parçalandı və yay xırmanlarındakı
saman çöpü kimi sovruldu. Külək onları
apardı və onlardan əsər-əlamət qalmadı.
Heykəli dağıdan daş isə böyük bir dağ oldu və
bütün dünyanı tutdu.

36 Yuxu budur. İndi isə padşahın önündə
onu yozaq. 37 Ey padşah, sən şahənşahsan.
Göylərin Allahı padşahlığı, qüvvəti, qüdrəti
və izzəti sənə verib. 38 O hər yerdə yaşayan
bəşər övladlarını, heyvanları və quşları
ixtiyarına verməklə səni onlara hökmdar edib.
Qızıldan olan baş sənsən! 39 Sonra səndən
aşağı səviyyədə olan başqa padşahlıq
yaranacaq. Ondan sonra isə tuncdan olan,
bütün dünyaya hökmranlıq edən üçüncü bir
padşahlıq olacaq. 40 Dördüncü padşahlıq isə
dəmir kimi möhkəm olacaq, çünki dəmir hər
şeyi qırıb-dağıtdığı kimi o da başqalarını hər
şeyi əzən dəmir tək qırıb-əzəcək. 41 Ayaqların
və barmaqların bir hissəsinin dulusçu gilindən,
bir hissəsinin isə dəmirdən olduğunu
görməyinin mə’nası budur ki, o bölünmüş
padşahlıq olacaq. Onda bir qədər dəmir
möhkəmliyi qalacaq, necə ki sən dəmiri
dulusçu gili ilə qarışıq görmüsən. 42 Ayaq
barmaqlarının bir hissəsi dəmirdən, bir hissəsi
gildən olduğu kimi bu padşahlığın da bir
hissəsi möhkəm, bir hissəsi kövrək olacaq.
43 Dəmiri dulusçu gili ilə qarışıq gördüyünün
mə’nası budur ki, onlar müxtəlif insan
nəsilləri vasitəsilə bir-birləri ilə qarışacaq,
ancaq dəmir gillə birləşmədiyi kimi onlar da
bir-birləri ilə birləşməyəcək.

44 O padşahların dövründə göylərin Allahı
heç vaxt dağılmayan bir padşahlıq quracaq və
bu padşahlıq başqa xalqın əlinə keçməyəcək.
O bütün əvvəlki padşahlıqları əzib-dağıdacaq,
özü isə əbədi qalacaq. 45 Sən gördün ki,
dağdan bir daş əl dəymədən qoparıldı, dəmiri,
tuncu, gili, gümüşü və qızılı parça-parça etdi.
Beləcə böyük Allah bundan sonra nə
olacağını padşaha bildirib. Bu yuxu doğrudur
və onun yozumu da e’tibarlıdır».

46 O zaman padşah Navuxodonosor üzüstə
düşüb Danielə səcdə etdi, onun üçün təqdim
gətirməyi və buxur yandırmağı əmr etdi.
47 Padşah Danielə dedi: «İndi ki sən bu sirri
açа bildin, həqiqətən, sizin Allahınız
allahların Allahı və padşahların Ağasıdır,
sirləri açan da Odur». 48 Bundan sonra padşah
Danieli yüksək vəzifəyə qoydu və ona çoxlu
qiymətli hədiyyə verdi. Onu Babil vilayətinin
başçısı və bütün Babil müdriklərinin baş rəisi
tə’yin etdi. 49 Daniel padşahdan xahiş etdi, o
da Şadrakı, Meşakı və Aved-Neqonu Babil
vilayətinə mə’mur qoydu. Daniel isə padşah
sarayında qaldı.

### *Qızıl büt və odlu soba*

3 1 Padşah Navuxodonosor bir qızıl
heykəl düzəltdi. Onun hündürlüyü altmış
qulac, eni altı qulac idi. Onu Babil vilayətində
olan Dura çölündə qoydu. 2 Sonra padşah
Navuxodonosor canişinləri, əmirləri, valiləri,
müşavirləri, xəzinədarları, hakimləri, vəkilləri,
xülasə, bütün vilayətlərin mə’murlarını
toplamaq üçün xəbər göndərdi ki, qoyduğu
heykəlin həsretmə mərasiminə gəlsinlər. 3 O
zaman padşah Navuxodonosorun qoyduğu
heykəlin həsretmə mərasiminə canişinlər,
əmirlər, valilər, müşavirlər, xəzinədarlar,
hakimlər, vəkillər, xülasə, bütün vilayətlərin
mə’murları toplaşdı. 4 Carçı ucadan e’lan etdi:
«Ey müxtəlif xalqlara, millətlərə və dillərə
mənsub adamlar, sizə əmr olunur ki, 5 buynuz,
zurna, rübab, arfa, səntur, tuluq zurnası və hər
cür musiqi alətlərinin səsini eşidən vaxt yerə
əyilib padşah Navuxodonosorun qoyduğu
qızıl heykələ səcdə edəsiniz. 6 Kim yerə əyilib
səcdə etməsə, o saat odla qızmış sobanın içinə
atılacaq». 7 Beləliklə, bütün xalqlara,
millətlərə və dillərə mənsub adamlar buynuz,
zurna, rübab, arfa, səntur, tuluq zurnası və hər
cür musiqi alətlərinin səsini eşidən zaman
yerə əyilib padşah Navuxodonosorun
qoyduğu qızıl heykələ səcdə etdi.

8 Elə bu vaxt bə’zi münəccimlər Yəhudiləri
ittiham etdi. 9 Onlar padşah Navuxodonosora
dedi: «Qoy padşah həmişə sağ olsun, 10 sən
əmr etmisən ki, buynuz, zurna, rübab, arfa,
səntur, tuluq zurnası və hər cür musiqi
alətlərinin səsini eşidən hər kəs yerə əyilib
qızıl heykələ səcdə etsin. 11 Kim yerə əyilib
səcdə etməsə, odla qızmış sobanın içinə
atılacaq. 12 Sənin Babil vilayətinə mə’mur
qoyduğun Şadrak, Meşak və Aved-Neqo adlı
Yəhudilər var. Ey padşah, bu adamlar sənə

***3:6** – Mat. 13:41-42; 49-50*

itaət etmir, sənin allahlarına xidmət etmir və
qoyduğun qızıl heykələ səcdə etmir».
[13] O zaman Navuxodonosor qızğın qəzəblə
əmr etdi ki, Şadrakı, Meşakı və Aved-Neqonu
gətirsinlər. Bu adamlar padşahın hüzuruna
gətirildi. [14] Navuxodonosor onlara dedi: «Ey
Şadrak, Meşak və Aved-Neqo, bu doğrudur ki,
siz mənim allahlarıma qulluq etmirsiniz?
Mənim qoyduğum qızıl heykələ səcdə
etmirsiniz? [15] Yaxşı olar ki, indi buynuz, zurna,
rübab, arfa, səntur, tuluq zurnası və hər cür
musiqi alətlərinin səsini eşidən zaman yerə
əyilib düzəltdiyim heykələ səcdə edəsiniz.
Əgər səcdə etməsəniz, o saat odla qızmış
sobaya atılacaqsınız. O zaman sizi hansı allah
mənim əlimdən qurtara bilər?» [16] Şadrak,
Meşak və Aved-Neqo padşaha cavab verdi:
«Ey Navuxodonosor, bizim bu iş üçün sənin
önündə özümüzü müdafiə etməyimizə ehtiyac
yoxdur. [17] Ey padşah, əgər belə olsa, qulluq
etdiyimiz Allahımız bizi odla qızmış sobadan
xilas etməyə qadirdir və sənin də əlindən
qurtaracaq. [18] Sənə mə’lum olsun ki, ey
padşah, əgər belə olmasa da, biz sənin
allahlarına qulluq edən deyilik və sənin
qoyduğun qızıl heykələ də səcdə
etməyəcəyik».
[19] O zaman Navuxodonosor bərk qəzəbləndi
və Şadraka, Meşaka, Aved-Neqoya qarşı
siması dəyişdi. O əmr etdi ki, sobanı adətən
qızdırdıqlarından yeddi dəfə artıq qızdırsınlar.
[20] Ordusunun ən güclü əsgərlərinə əmr etdi ki,
Şadrakın, Meşakın və Aved-Neqonun əl-
qolunu bağlayıb onları odla qızmış sobaya
atsınlar. [21] Onda əyinlərində cübbə, şalvar,
çalma və başqa paltarlar olan bu adamların əl-
qolunu bağladılar və odla qızmış sobaya
atdılar. [22] Padşahın əmri qəti idi. Soba
həddindən artıq qızdırıldığı üçün alovun
dilləri Şadrakı, Meşakı və Aved-Neqonu oda
atan adamları öldürdü. [23] Bu üç nəfər – Şadrak,
Meşak və Aved-Neqo isə əl-qolları bağlanmış
halda odla qızmış sobanın içinə yıxıldı.
[24] O zaman padşah Navuxodonosor heyrətə
gəlib tez ayağa qalxdı və öz müşavirlərinə
dedi: «Biz üç nəfər əl-qolu bağlanmış adamı
oda atmadıqmı?» Onlar cavabında padşaha
dedi: «Doğrudur, ey padşah!» [25] O dedi:
«Budur, mən odun içində əl-qolu
bağlanmamış dörd nəfərin gəzdiyini görürəm
və onlara heç nə olmur. Onlardan dördüncüsü
allahların oğluna bənzəyir». [26] O zaman
Navuxodonosor odla qızmış sobanın
astanasına yaxınlaşdı və səsləyib dedi: «Ey
uca Allahın qulları Şadrak, Meşak və Aved-
Neqo! Çıxın və buraya gəlin». Onda Şadrak,
Meşak və Aved-Neqo odun içindən çıxdı.
[27] Ətrafa toplaşmış canişinlər, əmirlər, valilər
və padşahın müşavirləri gördü ki, od bu
adamların bədəninə heç bir zərər vurmayıb:
nə onların saçları yanmış, nə də paltarları
dəyişmişdi, hətta odun hisi də onlara
hopmamışdı.
[28] Onda Navuxodonosor dedi: «Şadrakın,
Meşakın və Aved-Neqonun Allahına şükür
olsun ki, Öz mələyini göndərib Ona arxalanan
qullarını xilas etdi. Onlar padşahın əmrinə
qarşı çıxıb özlərini qurban verməк istədilər ki,
özlərinin Allahından başqa bir allaha qulluq
yaxud səcdə etməsinlər. [29] Mən fərman
verirəm ki, Şadrakın, Meşakın və Aved-
Neqonun Allahına küfr edən hər xalqa,
millətə və dilə mənsub olan adam parça-parça
ediləcək və onların evləri zibilliyə çevriləcək,
çünki bu cür xilas edən başqa bir allah
yoxdur». [30] O zaman padşah Babil vilayətində
Şadrakın, Meşakın və Aved-Neqonun
vəzifələrini yüksəltdi.

4 [1] Padşah Navuxodonosor bütün
dünyada yaşayan xalqlara, millətlərə və
dillərə mənsub adamlara müraciət etdi:
«Sülhünüz bol olsun! [2] Məsləhət bildim ki, ən
uca Allahın mənim üçün etdiyi əlamətləri və
mö’cüzələri sizə e’lan edim. [3] Onun əlamətləri
necə də böyükdür, Onun mö’cüzələri necə də
qüdrətlidir! Onun padşahlığı əbədi
padşahlıqdır, Onun hökmranlığı nəsildən-
nəslə qalacaq».

### *Navuxodonosorun ikinci yuxusu*

[4] Mən Navuxodonosor öz evimdə –
sarayımda rahat və naz-ne’mət içində
yaşayırdım. [5] Ancaq bir gün məni qorxudan
bir yuxu gördüm. Yatarkən düşüncələrim və
gördüyüm görüntülər məni vahiməyə saldı.
[6] Ona görə də əmr etdim ki, yuxunu yozmaq
üçün bütün Babil müdriklərini hüzuruma
çağırsınlar. [7] Onda sehrbazlar, ruhçağıranlar,
münəccimlər və əlamət baxıcıları gəldi. Mən
yuxumu danışdım, ancaq onlar yuxunu yoza
bilmədi. [8] Nəhayət, allahımın adı ilə
Belteşassar adlanan və müqəddəs allahların
ruhuna malik olan Daniel hüzuruma gəldi.
Mən yuxumu ona danışaraq dedim:

[9] «Ey sehrbazların ən böyüyü Belteşassar!
Bilirəm ki, səndə müqəddəs allahların ruhu
var və sənin üçün hər hansı bir sirri açmaq
çətin deyil. İndi yuxuda gördüyüm görüntüləri
və onların yozumunu mənə söylə. [10] Yatarkən
belə yuxu görmüşdüm: dünyanın ortasında
çox hündür bir ağac var idi. [11] Ağac o qədər
böyüdü və möhkəmləndi ki, başı göylərə çatdı.
O, dünyanın hər tərəfindən görünürdü.
[12] Onun gözəl yarpaqları və çoxlu meyvələri
var idi, üstündə hər kəs üçün qida var idi.
Ağacın altında çöl heyvanları kölgə tapır,
budaqlarında quşlar yuva salır və bütün canlı
məxluqlar onunla qidalanırdı.
[13] Yatarkən yuxumda gördüm ki, göylərdən
qoruyucu, müqəddəs bir mələk endi. [14] O
ucadan e'lan edib dedi: "Bu ağacı kəsin,
budaqlarını qırın, yarpaqlarını yolun və
meyvəsini səpələyin. Qoy heyvanlar onun
altından, quşlar isə budaqlarından qaçsın.
[15] Ancaq kötüyü ilə köklərini dəmir və tuncla
çənbərləyib torpağın içində, çöl otları
arasında saxlayın. Qoy o, göylərin şehi ilə
islansın və heyvanlarla birgə yerin otu ilə
qidalansın. [16] Onun insan ağlı əlindən alınsın
və ona heyvan ağlı verilsin. Yeddi il keçənə
qədər belə qalsın. [17] Qoruyucu mələklər belə
əmr edib, müqəddəs mələklər belə qərara
gəlib ki, indi yaşayanlar bunu bilsin: insan
padşahlıqları üzərində Allah-Taala
hökmranlıq edir, padşahlığı kimə istəyir, ona
verir və insanlar arasında ən aşağı olanı onlara
başçı qoyur".
[18] Mən padşah Navuxodonosor belə bir
yuxu gördüm. Ey Belteşassar, sən bu yuxunu
yoz, çünki padşahlığımın müdrik
adamlarından heç biri bu yuxunu yoza bilmir.
Sən isə bunu edə bilərsən, çünki səndə
müqəddəs allahların ruhu var».

### *Danielin yuxunu yozması*

[19] O zaman Belteşassar adlanan Daniel bir
müddət heyrət içində qaldı və fikirləri onu
vahiməyə saldı. Padşah belə dedi: «Ey
Belteşassar, bu yuxu və onun yozumu səni
vahiməyə salmasın». Belteşassar cavab verdi:
«Ey ağam, bu yuxu sənə nifrət edənlərin,
onun yozumu sənin düşmənlərinin nəsibi
olsun! [20] Sənin gördüyün böyük və möhkəm
olan, başı göylərə çatan və dünyanın hər
tərəfindən görünən, [21] yarpaqları gözəl,
meyvələri çox və hər kəs üçün qidası olan,
altında çöl heyvanları kölgə tapan və
budaqlarında quşlar yuva quran [22] ağac sənsən,
ey padşah. Sən böyüyüb möhkəmləndin,
əzəmətin artıb göylərə, hakimiyyətin
dünyanın hər tərəfinə çatdı. [23] Padşah gördü ki,
qoruyucu, müqəddəs bir mələk göylərdən
enib dedi: "Bu ağacı kəsib xarab edin, ancaq
kötüyü ilə köklərini dəmir və tuncla
çənbərləyib torpağın içində, çöl otları
arasında saxlayın. Qoy o, göylərin şehi ilə
islansın və yeddi il keçənə qədər heyvanlarla
birgə qidalansın".
[24] Ey padşah, yuxunun yozumu və Allah-
Taalanın ağam padşaha qarşı hökmü belədir:
[25] sən insanlar arasından qovulacaqsan, çöl
heyvanları ilə yaşayacaqsan, sənə öküz kimi
ot yedirəcəklər, göylərin şehi ilə islanacaqsan.
Yeddi il keçəcək ki, Allah-Taalanın insan
padşahlığı üzərində hökmranlıq etdiyini və
onu kimə istəsə verdiyini dərk edəsən.
[26] Ağacın kötüyü ilə köklərinin qalması
barədə olan fərmanın mə'nası budur ki, sən
göylərin hökmranlıq etdiyini dərk edəndən
sonra padşahlığın sənə qaytarılacaq. [27] Ey
padşah, buna görə də sən mənim məsləhətimi
qəbul et: ədalətlə rəftar etməklə
günahlarından, yoxsullara mərhəmət etməklə
təqsirlərindən vaz keç. Bəlkə bununla sənin
əmin-amanlığının müddəti uzadılar».

### *Yuxunun çin çıxması*

[28] Bütün bunlar padşah Navuxodonosorun
başına gəldi. [29] On iki ay keçəndən sonra
Babildəki sarayının damında gəzən padşah
dedi: [30] «Bu, şan-şöhrətim üçün böyük
qüdrətimlə paytaxt kimi tikdiyim böyük Babil
deyilmi?» [31] Söz padşahın ağzından
çıxmamışdı ki, göylərdən səs gəldi: «Ey
padşah Navuxodonosor, sənə deyilir ki,
padşahlığın əlindən alındı. [32] Sən insanlar
arasından qovulacaq, çöl heyvanları ilə
yaşayacaqsan, sənə öküz kimi ot yedirəcəklər.
Yeddi il keçəcək ki, Allah-Taalanın insan
padşahlığı üzərində hökmranlıq etdiyini və
onu kimə istəsə verdiyini dərk edəsən».
[33] Deyilən hadisələr o saat
Navuxodonosorun başına gəldi: o, insanlar
arasından qovuldu, öküz kimi ot yeməyə
başladı və göylərin şehi ilə islandı. Onun tükü
qartal tükü kimi, dırnağı quş dırnağı kimi
uzandı.
[34] «O günlərin sonunda mən
Navuxodonosor üzümü göylərə tutdum və

ağlım başıma qayıtdı. Allah-Taalaya həmd
etdim, Əbədi Yaşayanı mədh edib
izzətləndirdim, çünki Onun hökmranlığı
əbədidir və padşahlığı nəsildən-nəslə qalır.
35 Dünyada yaşayanların hamısı heç bir şey
sayılır. O həm səma ordusunun, həm də
dünyada yaşayanların arasında Öz hökmünü
yeridir. Onun əlini saxlayacaq və Ona "Nə
edirsən?" deyəcək bir kəs yoxdur.
36 O zaman ağlım başıma gəldi.
Padşahlığımın izzəti üçün cah-cəlalım yenə
özümə qayıtdı. Müşavirlərim və ə'yanlarım
məni axtarıb tapdı. Mən yenə öz taxtıma
qayıtdım və əzəmətim daha da artdı. 37 İndi isə
mən Navuxodonosor göylərin Padşahına
həmd edirəm və Onu mədh edib
izzətləndirirəm, çünki Onun bütün işləri
həqiqət, əməlləri ədalətlidir və qürurla
gəzənləri alçaltmağa qüdrəti var».

### *Belşassarın ziyafəti*

5 1 Padşah Belşassar min nəfər ə'yanı
üçün böyük bir ziyafət qurdu və onlarla
şərab içdi. 2 Belşassar şərab içərkən əmr etdi
ki, babası Navuxodonosorun Yerusəlimdəki
mə'bəddən çıxardığı qızıl və gümüş qabları
gətirsinlər və padşah, ə'yanları, arvadları və
cariyələri onlarla şərab içsin. 3 Onda
mə'bəddən – Allahın Yerusəlimdə olan
evindən çıxarılmış qızıl qablar gətirildi.
Padşah, ə'yanları, arvadları və cariyələri
bunlarla şərab içməyə başladı. 4 Onlar şərab
içərək qızıl, gümüş, tunc, dəmir, ağac və daş
allahlara həmd etdi.
5 Elə bu an bir insan əlinin barmaqları
göründü və şamdanın yanında padşah
sarayının divarının suvağı üzərinə nəsə yazdı.
Padşah yazan əli gördü. 6 Onda padşahın
bənizi soldu və düşüncələri onu vahiməyə
saldı. Belinin əzələləri zəiflədi və dizləri bir-
birinə dəyməyə başladı. 7 Padşah ucadan
qışqırdı ki, ovsunçuları, münəccimləri və
falçıları gətirsinlər. Gələn Babil müdriklərinə
padşah belə dedi: «Kim bu yazılanı mənə
oxuyub mə'nasını izah etsə, ona qırmızı libas
geyindiriləcək, boynuna qızıl zəncir asılacaq
və padşahlıqda üçüncü adam olacaq».
8 Padşahın bütün müdrikləri içəri girdi, ancaq
yazılanı nə oxuya, nə də mə'nasını padşaha
izah edə bildilər. 9 Onda padşah Belşassar
daha da vahiməyə düşdü və bənizi soldu,
ə'yanları da heyrətə düşdü.
10 Mələkə padşahın və ə'yanlarının sözlərini
eşidib ziyafət otağına gəldi. Mələkə belə dedi:
«Qoy padşah həmişə sağ olsun, fikirlərin səni
vahiməyə salmasın, bənizin də solmasın.
11 Sənin padşahlığında müqəddəs allahların
ruhuna malik olan bir adam var. Sənin
babanın dövründə o nuraniliyə, dərrakəyə və
allahların müdrikliyi qədər müdrikliyə malik
olması ilə tanınırdı. Baban padşah
Navuxodonosorun özü onu sehrbazların,
ruhçağıranların, münəccimlərin və əlamət
baxıcılarının başçısı qoymuşdu. 12 Çünki
padşahın Belteşassar adlandırdığı bu adam –
Daniel iti ağıla, biliyə, dərrakəyə, yuxuları
yozmaq, müəmmaları açmaq və çətinlikləri
həll etmək qabiliyyətinə malik olması ilə
tanınmışdı. İndi qoy Danieli çağırsınlar, o
sənə bunun mə'nasını izah edəcək».
13 Onda Danieli padşahın hüzuruna
gətirdilər və padşah ondan soruşdu: «Padşah
babamın Yəhudadan sürgün edərək gətirdiyi
Yəhudalılardan olan Daniel sənsənmi? 14 Mən
sənin barəndə eşitmişəm ki, səndə allahların
ruhu var, nuranilik, dərrakə və böyük
müdriklik sahibisən. 15 Budur, hüzuruma
müdriklər və ovsunçular gətirildi ki, bu
yazılanı oxuyub mə'nasını mənə açsınlar,
ancaq onlar bunu mənə izah edə bilmədi.
16 Sənin barəndə isə eşitmişəm ki, yozum
verib çətinlikləri həll edə bilirsən. Əgər indi
bu yazılanı oxuyub mə'nasını izah edə bilsən,
sənə qırmızı libas geyindiriləcək, boynuna
qızıl zəncir asılacaq və padşahlıqda üçüncü
adam olacaqsan».
17 Onda Daniel padşaha cavab verdi: «Qoy
hədiyyələrin özünə qalsın, mükafatlarını da
başqasına ver. Yazılanı isə mən padşaha
oxuyub mə'nasını izah edə bilərəm. 18 Ey
padşah! Ən uca Allah sənin baban
Navuxodonosora padşahlıq, əzəmət, izzət və
cah-cəlal vermişdi. 19 Allahın ona verdiyi
əzəmətə görə bütün xalqlara, millətlərə və
dillərə mənsub adamlar ondan qorxub əsirdi.
O istədiyi adamı öldürər, istədiyi adamı sağ
buraxardı, istədiyi adamı yüksəldər, istədiyi
adamı alçaldardı. 20 Ancaq ürəyi qürurlanıb
inadkar olanda padşahlıq taxtından salındı və
izzəti əlindən alındı. 21 O, insanlar arasından
qovuldu, ağlı heyvan ağlına çevrildi və vəhşi
eşşəklərlə yaşamağa başladı. Ona öküz kimi
ot yedirirdilər, bədəni göylərin şehi ilə
islanırdı. Nəhayət, dərk etdi ki, hər şeydən

uca Allah insan padşahlıqları üzərində
hökmranlıq edir və kimi istəyir onlara başçı
qoyur. 22 Sən – onun övladı Belşassar da
bütün bunları bildiyin halda təvazökarlıq
etmədin, 23 əksinə, göylərin Rəbbinə qarşı
qürurlandın. Onun mə’bədinin qablarını sənin
hüzuruna gətirdilər və sən, ə’yanların,
arvadların, cariyələrin bunlarla şərab içdiniz.
Sən qızıl-gümüş, tunc, dəmir, ağac və daşdan
olub, görməyən, eşitməyən, anlamayan
allahlara həmd etdin, ancaq nəfəsin əlində
olan və etdiyin hər şeyə göz qoyan Allahı
izzətləndirmədin. 24 Buna görə də Onun
tərəfindən bir əl göndərilib bu sözləri yazdı.
25 Yazılan sözlər budur: Mene, Mene, Teqel
və Parsin.[2]

26 Sözlərin mə’nası isə budur: Mene – Allah
sənin padşahlıq müddətini hesabladı və ona
son qoydu; 27 Teqel – sən tərəzidə çəkildin və
yüngül olduğun bilindi; 28 Peres – sənin
padşahlığın bölünərək Midiyalılara və
Farslara verildi».

29 Onda Belşassarın əmri ilə Danielə qırmızı
libas geyindirdilər, boynuna qızıl zəncir
asdılar və o, padşahlıqda üçüncü adam e’lan
olundu.

30 Həmin gecə Babil padşahı Belşassar
öldürüldü. 31 Altmış iki yaşlı Midiyalı Dara
hakimiyyəti əlinə aldı.

### *Daniel şirlərlə quyuda*

6 1 Dara qərara aldı ki, ölkəyə başçılıq
etmək üçün padşahlığın bütün ərazisinə
yüz iyirmi canişin tə’yin etsin, 2 onlara isə üç
vəzir başçılıq etsin. Bu canişinlər onlara
hesabat versin, padşaha da ziyan dəyməsin.
Həmin üç vəzirdən biri Daniel idi. 3 Bu adam
– Daniel başqa vəzirlərdən və canişinlərdən
üstün idi, çünki o, iti ağla malik idi. Buna
görə də padşah qərara gəlmişdi ki, onu bütün
ölkəyə başçı qoysun.

4 Belə olanda vəzirlər və canişinlər Danieli
ölkənin idarə işlərində ittiham etmək üçün bir
bəhanə axtarmağa başladılar, ancaq heç bir
bəhanə və təqsir tapa bilmədilər, çünki Daniel
e’tibarlı idi və onda heç bir səhv yaxud təqsir
tapılmadı. 5 Nəhayət, bu adamlar dedi: «Əgər
bu adamın – Danielin Allahının dinində onun
əleyhinə bir şey tapmasaq, ona qarşı bir
bəhanə tapa bilməyəcəyik».

6 Onda bu vəzirlər və canişinlər padşahın
yanına gəldi və ona belə dedi: «Qoy padşah
Dara həmişə sağ olsun! 7 Ölkənin bütün
vəzirləri, əmirləri, canişinləri, müşavirləri və
valiləri birlikdə razılaşdı ki, belə bir padşah
fərmanı və qadağan əmri verilsin: ey padşah,
otuz gün ərzində kim səndən başqa bir allaha
yaxud insana dua etsə, şirlər olan quyuya
atılsın. 8 Ey padşah, indi bu qadağan əmrini
ver, Midiya və Fars qanunlarına əsasən
dəyişilməz və heç vaxt pozulmayan bir
fərmanı imzala». 9 Padşah Dara belə bir
fərmanı və qadağan əmrini imzaladı.

10 Daniel belə bir fərmanın imzalandığını
öyrəndikdə öz evinə qayıtdı. Onun yuxarı
otağının Yerusəlimə tərəf olan pəncərələri
açıq idi. Daniel əvvəllər etdiyi kimi gündə üç
dəfə diz çöküb öz Allahına dua etdi və Onun
önündə şükür etdi. 11 Onda bu adamlar
birlikdə oraya gedib Danielin Allaha dua
etdiyini və yalvardığını gördü. 12 Sonra gəlib
padşaha öz qadağan əmri barədə dedilər: «Ey
padşah, sən belə bir qadağan əmri
imzalamısan ki, otuz gün ərzində kim səndən
başqa bir allaha yaxud insana dua etsə, şirlər
olan quyuya atılsın?» Padşah cavab verdi:
«Bu qərar dəyişilməz olan Midiya və Fars
qanunlarına əsasən qətidir». 13 O vaxt onlar
padşaha dedi: «Ey padşah, sürgün olunmuş
Yəhudalılardan olan Daniel səni və
imzaladığın qadağan əmrini saymayaraq
gündə üç dəfə dua edir». 14 Padşah bu sözləri
eşidəndə çox kədərləndi və ürəyində niyyət
etdi ki, Danieli qurtarsın. Padşah hətta günəş
batana qədər onu xilas etməyə çalışdı.
15 Ancaq o adamlar birlikdə padşahın yanına
gəlib ona dedi: «Ey padşah, bunu bil ki,
Midiya və Fars qanunlarına görə padşahın
təsdiq etdiyi qadağan əmri və fərman
dəyişilməz». 16 Bunu eşitdikdə padşah əmr
etdi və Danieli gətirib şirlər olan quyuya
atdılar. Padşah Danielə belə dedi: «Daim
qulluq etdiyin Allahın səni qurtarsın!»
17 Sonra bir daş gətirilib quyunun ağzına
qoyuldu. Danielin hökmündə heç nə
dəyişməsin deyə padşah özünün möhür üzüyü
və ə’yanlarının üzükləri ilə daşı möhürlədi.
18 Sonra padşah öz sarayına qayıtdı. Gecəni
yemək yemədən və əylənmədən keçirdi,
yuxusu da qaçdı.

---

[2] **5:25** *Mene* – arami dilində *hesablanmış* yaxud *mina* (pul vahidi), *Teqel – çəkilmiş* yaxud *şekel* (pul vahidi), *Parsin – bölünmüş, Farslar* yaxud *yarım şekel.*

19 Səhər açılanda padşah yerindən qalxıb
tələsik şirlərin olduğu quyuya getdi. 20 Oraya
yaxınlaşanda kədərli səslə Danieli çağırıb
dedi: «Ey Daniel, var olan Allahın qulu!
Daim qulluq etdiyin Allahın səni şirlərdən
qurtara bildimi?» 21 Onda Daniel padşaha dedi:
«Qoy padşah həmişə sağ olsun! 22 Allahım öz
mələyini göndərib şirlərin ağzını bağladı və
onlar mənə toxunmadı, çünki mənim Allahın
önündə təqsirsiz olduğum bilindi. Ey padşah,
sənə qarşı da heç bir cinayət etməmişəm».
23 Onda padşah çox sevindi və Danieli
quyudan çıxarmağı əmr etdi. Daniel quyudan
çıxarılanda onun bədənində heç bir zədə yox
idi, çünki öz Allahına güvənmişdi. 24 Padşah
əmr etdi və Danieli ittiham edən adamlar
gətirildi. Onları uşaqları və arvadları ilə
birlikdə şirlərin olduğu quyuya atdılar.
Quyunun dibinə çatmamış şirlər onları qapıb
sümüklərini qırdı.

25 O zaman padşah Dara bütün dünyada
yaşayan xalqlara, millətlərə və dillərə mənsub
olan adamlara belə yazdı: «Sülhünüz bol
olsun! 26 Fərman verirəm ki, bütün
padşahlığımın ərazisində olan adamlar
Danielin Allahından qorxub titrəsin, çünki O,
var olan Allahdır, əbədi olaraq mövcuddur,
Onun padşahlığı dağılmaz və hökmranlığı
sonsuzdur. 27 O qurtarıb xilas edər, göydə və
yerdə əlamətlər, mö'cüzələr göstərər. Danieli
şirlərin pəncəsindən O qurtardı».

28 Bu adam – Daniel Daranın, Fars Kirin
padşahlığında uğur qazandı.

### *Danielin birinci görüntüsü*

7 1 Babil padşahı Belşassarın
padşahlığının birinci ilində Daniel
yatarkən bir yuxu gördü və ona görüntülər
gəldi. Sonra yuxunu yazıb məzmununu qeyd
etdi. 2 Daniel danışmağa başlayıb dedi: mən
gecə gələn görüntüdə gördüm ki, budur,
göylərin dörd küləyi böyük bir dənizin
üstündə çarpışır. 3 Dənizdən bir-birinə
oxşamayan dörd böyük heyvan çıxdı.
4 Birincisi şirə bənzəyirdi, amma onun qartal
qanadları var idi. Mən baxarkən onun
qanadları qoparıldı və o yerdən qaldırılıb
insan kimi ayaq üstə qalxdı. Ona insan ürəyi
verilmişdi. 5 Başqa birisi – ikinci bir heyvan
ayıya bənzəyirdi. O, bir yanı tərəfə əyilmişdi
və ağzında – dişləri arasında üç qabırğa
sümüyü var idi. Ona belə deyildi: «Qalx çoxlu
ət ye». 6 Bundan sonra mən bəbirə bənzəyən
başqa bir heyvan gördüm. Heyvanın belində
dörd quş qanadı və onun dörd başı var idi.
Ona hakimiyyət verilmişdi. 7 Bundan sonra
mən gecə gələn görüntülərdə dəhşətli,
heybətli və çox güclü olan dördüncü heyvanı
gördüm. Onun böyük dəmir dişləri var idi. O
hər şeyi əzib yeyir, qalıqları isə ayaqları
altında tapdalayırdı. O, heyvanların
hamısından fərqlənirdi və on buynuzu var idi.
8 Mən buynuzlara baxırdım ki, onların
arasından yenə kiçik bir buynuz çıxdı və
əvvəlki buynuzlardan üçü onun qarşısından
götürüldü. Bu buynuzun insan gözləri kimi
gözləri və təkəbbürlə danışan ağzı var idi.

9 Nəhayət, mən gördüm ki, taxtlar quruldu
və Əzəldən Var Olan oturdu. Onun əynində
qar kimi bəyaz paltar var idi və saçları yun
kimi ağappaq idi. Taxtı alov dilləri tək,
çarxları yanar od kimi idi. 10 Önündən odlu
çay çıxıb axırdı. Minlərlə nəfər Ona xidmət
edir, on minlərlə nəfər Onun hüzurunda
durmuşdu. Məhkəmə iclası başlandı və
kitablar açıldı. 11 O zaman buynuzun söylədiyi
təkəbbürlü sözlər mənim diqqətimi cəlb etdi.
Heyvan gözlərimin qabağında öldürüldü və
bədəni parçalanıb yanan oda atıldı.
12 Həmçinin başqa heyvanların da hakimiyyəti
əllərindən alındı, ancaq ömürləri müəyyən
müddətə qədər uzadıldı.

13 Gecə gələn görüntülərdə gördüm ki,
budur, bəşər oğluna bənzər birisi göyün
buludları ilə gəlir. O, Əzəldən Var Olana
yaxınlaşdı və Onun hüzuruna gətirildi. 14 Ona
hakimiyyət, izzət və padşahlıq verilmişdi ki,
bütün xalqlara, millətlərə və dillərə mənsub
adamlar ona xidmət etsin. Onun hakimiyyəti
sona yetməyəcək, əbədi hakimiyyətdir. Onun
padşahlığı əsla yox olmayacaq.

---

***7:2** – Yer. 49:36; Vəhy 7:1*
***7:3** – Vəhy 13:1; 17:8*
***7:4-6** – Vəhy 13:2*
***7:7** – Vəhy 12:3; 13:1*
***7:8** – Vəhy 13:5-6*
***7:9** – Vəhy 20:4*
***7:9** – Vəhy 1:14*
***7:10** – Vəhy 5:11*
***7:10** – Vəhy 20:12*
***7:13** – Mat. 24:30; 26:64; Mrk. 13:26; 14:62; Luk. 21:27; Vəhy 1:7,12-13; 14:14*
***7:14** – Vəhy 11:15*

15 Mən Danielin isə bədənimdə ruhum
titrədi və gələn görüntülər məni vahiməyə
saldı. 16 Ayaq üstə duran adamlardan birinə
yaxınlaşıb «Bütün bu şeylərin həqiqi mə'nası
nədir?» deyə soruşdum. O adam bu şeylərin
mə'nasını mənə izah edib bildirdi: 17 «Bu dörd
böyük heyvan yerdən çıxacaq dörd
padşahlıqdır. 18 Sonra padşahlığı Haqq-
Taalanın müqəddəsləri alacaq, əbədi və daim
padşahlığa sahib olacaq». 19 Onda mən
başqalarından fərqlənən dördüncü heyvan
barədə dəqiq izahat istədim. O, çox qorxunc
idi, dəmir dişləri və tunc dırnaqları ilə əzib
yeyirdi, qalıqları isə ayaqları altında
tapdalayırdı. 20 Onun başında on buynuz var
idi. Daha biri çıxdı və üçü onun önündə düşdü.
Bu həmin o buynuz idi ki, gözləri və
təkəbbürlə danışan ağzı var idi və görünüşü o
biri buynuzlarından daha heybətli idi. 21 Mən
gördüm ki, bu buynuz müqəddəslərlə döyüşüb
onlara üstün gəlir; 22 o vaxta qədər ki Əzəldən
Var Olan gəldi, Haqq-Taalanın
müqəddəslərinin xeyrinə hökm verildi və
padşahlığa müqəddəslərin sahib olduğu vaxt
yetişdi.
23 O bunu belə izah etdi: «Dördüncü heyvan
yer üzündə olacaq dördüncü padşahlıqdır. O
başqa padşahlıqlardan fərqli olub bütün yer
üzünü udacaq və hər şeyi tapdalayıb əzəcək.
24 On buynuzun mə'nası budur ki, bu
padşahlıqdan on padşah çıxacaq. Onlardan
sonra isə əvvəlkilərdən fərqli başqası çıxıb üç
padşahı yıxacaq. 25 Haqq-Taalanın əleyhinə
sözlər deyəcək və Haqq-Taalanın
müqəddəslərinə zülm edəcək. Hətta təqvimi
və qanunları dəyişməyə cəhd göstərəcək.
Onlar bir il, iki il və yarım il ərzində ona
təslim ediləcək. 26 Sonra isə məhkəmə
qurulacaq və onun hakimiyyəti əlindən
alınacaq, əbədilik məhv olub yox olacaq.
27 Padşahlıq, hakimiyyət və göylərin altındakı
bütün padşahlıqların əzəməti Haqq-Taalanın
müqəddəs xalqına veriləcək. Onun padşahlığı
əbədi padşahlıq olacaq və bütün hökmdarlar
Ona qulluq edib itaət edəcək».
28 Burada söz bitir. Mən Danieli isə
düşüncələrim bərk vahiməyə saldı və bənizim
soldu. Ancaq bu sözləri yadımda saxladım.

### *Danielin ikinci görüntüsü*

8 1 Əvvəl mənə gələn görüntüdən sonra
padşah Belşassarın hökmranlığının
üçüncü ilində mən Danielə başqa bir görüntü
gəldi. 2 Görüntüdə özümü Elam vilayətinin
Şuşan qalasında gördüm. Həmin görüntüdə
mən Ulay kanalının kənarında dayanmışdım.
3 Başımı qaldırıb gördüm ki, kanalın
kənarında bir qoç durub. Onun iki buynuzu
var idi. Buynuzlarının hər ikisi uzun idi, biri
digərindən uzun idi və uzun olan sonradan
çıxdı. 4 Mən gördüm ki, bu qoç qərbə, şimala
və cənuba təref buynuz vurur. Heç bir heyvan
onun qabağında dura bilmirdi və onun əlindən
qurtaran yox idi. O istədiyini etdi və özünü
yüksəltdi.
5 Mən bu barədə düşünərkən qərbdən bir
təkə gəldi. Onun gözləri arasında gözə çarpan
bir buynuzu var idi. O, ayağı yerə
toxunmadan bütün yer üzünü keçdi. 6 O,
kanalın kənarında durduğunu gördüyüm iki
buynuzu olan qoçun yanına gəldi və böyük
qızğınlıqla onun üstünə atıldı. 7 Mən gördüm
ki, o qeyzə gəlib qoça hücum etdi və qoçu
vurub iki buynuzunu qırdı. Qoçda onun
qabağında durmağa qüvvət yox idi. O, qoçu
yerə yıxıb tapdaladı. Qoçu onun əlindən
qurtaran olmadı. 8 Bir müddət təkə özünü çox
yüksəltdi, ancaq qüvvətlənəndə böyük
buynuzu qırıldı. Onun əvəzinə göylərin dörd
səmtinə doğru yönəlmiş gözə çarpan dörd
buynuz çıxdı.
9 Onların birindən başqa bir kiçik buynuz
çıxıb cənuba, şərqə və Gözəl ölkəyə[3] doğru
çox uzandı. 10 Səma ordusuna qədər uzanıb bu
ordunun və ulduzların bir hissəsini yerə
salaraq tapdaladı. 11 Hətta bu ordunun
Başçısına qədər özünü yüksəltdi. Onun daimi
yandırma qurbanı dayandırıldı və müqəddəs
məkanı təhqir olundu. 12 Asilik üzündən bu
ordu və daimi yandırma qurbanı kiçik
buynuza təslim edildi. O, həqiqəti yerə vurub
etdiyi hər işdə uğur qazandı. 13 Mən bir
müqəddəsin səsini eşitdim və başqa bir
müqəddəs danışana sual verdi: «Daimi
yandırma qurbanı və viranəlik gətirən asilik

***7:18*** *– Vəhy 22:5*
***7:21*** *– Vəhy 13:7*
***7:22*** *– Vəhy 20:4*
***7:24*** *– Vəhy 17:12*
***7:25*** *– Dan. 12:7; Vəhy 12:14; 13:5*
***7:27*** *– Vəhy 20:4*
***7:27*** *– Vəhy 22:5*

[3] **8:9** *Gözəl ölkə* – İsrail nəzərdə tutulur.
***8:10*** *– Vəhy 12:4*

barədəki görüntü nə vaxta qədər uzanır? Müqəddəs yerin və ordunun tapdalanmasına nə vaxta qədər icazə veriləcək?» 14 Sonra mənə dedi: «İki min üç yüz axşam və səhər keçənə qədər. Ondan sonra müqəddəs yer bərpa olunacaq».

15 Mən Daniel bu görüntünü görəndə onun mə'nasını öyrənmək istədim. Bu zaman qarşımda insan simasında olan bir nəfər dayandı. 16 Mən Ulay kanalından bir insan səsi eşitdim. O nida edib «ey Cəbrayıl, bu görüntünü ona izah et» dedi. 17 O dayandığım yerə yaxınlaşdı. Yanıma çatanda mən dəhşətə düşüb üzüstə yıxıldım. O mənə dedi: «Ey bəşər oğlu, bil ki, bu görüntü axır zamana aiddir». 18 O mənimlə danışdığı vaxt üzüstə yıxılıb dərin yuxuya getmişdim. O məni tutub ayaq üstə qaldırdı 19 və dedi: «Bax daha sonra Allahın qəzəb günlərində nə baş verəcəyini sənə bildirirəm, çünki görüntü axır zamanın müəyyən vaxtına aiddir.

20 Gördüyün iki buynuzlu qoç Midiya və Fars padşahlarıdır. 21 Tüklü təkə isə Yunan padşahıdır, onun gözləri arasında olan böyük buynuz isə birinci padşahdır. 22 Qırılan buynuzun yerinə çıxan dörd buynuz o millətdən çıxacaq dörd padşahlığı təmsil edir. Ancaq onlar birinci padşah qədər güclü olmayacaq. 23 Onların hakimiyyətinin sonunda isə asilər azğınlıq edəndə həyasız və hiyləgərlikdə mahir bir padşah çıxacaq. 24 O çox güclənəcək, ancaq öz gücü ilə yox. Heyrətləndirici dağıntılar törədəcək, etdiyi hər işdə uğur qazanacaq, igid adamları və müqəddəs xalqı qıracaq. 25 Öz hiyləgərliyi ilə məkrli işlərində uğur qazanacaq və ürəyində özünə qürrələnəcək. Əmin-amanlıqda yaşayan çoxlu adamı həlak edəcək və başçılar Başçısına qarşı çıxacaq, ancaq əl dəymədən məhv olacaq. 26 Axşam və səhər barədə sənə göstərilən bu görüntü həqiqətdir. Ancaq sən bu görüntünü gizli saxla, çünki o, uzaq dövrə aiddir».

27 Onda mən Daniel taqətdən düşdüm və bir neçə gün xəstə oldum. Sonra qalxıb padşahın işləri ilə məşğul olmağa başladım. Mən bu görüntüdən çaşqın hala gəlmişdim, onu anlaya bilmirdim.

### *Danielin öz xalqı üçün duası*

9 1 Midiya tayfasından Axaşveroşun oğlu Daranın padşahlığının birinci ili idi. O, Xaldey ölkəsinə padşah qoyulmuşdu. 2 Onun padşahlığının birinci ilində mən Daniel Yerusəlimin viranə qalacağı müddətin yetmiş il olduğu barədə Rəbbin Yeremya peyğəmbərə göndərdiyi sözü kitablardan anladım.

3 Mən Xudavənd Allaha üz tutdum, çul geyib külə oturdum, oruc tutaraq dua və yalvarışla Onu axtardım. 4 Allahım Rəbbə dua etdim və e'tiraf edərək dedim:

«Sənə dua edirəm, ey böyük və zəhmli Xudavənd Allah! Səni sevənlər və əmrlərinə əməl edənlər üçün əhdinə sadiq qalıb məhəbbət göstərirsən. 5 Biz günah və təqsir etdik, pislik edib Sənə asi olduq. Sənin əmrlərindən və hökmlərindən üz döndərdik. 6 Padşahlarımıza, başçılarımıza, atalarımıza və ölkənin bütün xalqına Sənin adınla söz deyən qulların peyğəmbərlərə qulaq asmadıq. 7 Ey Xudavənd, Səndə ədalət var, bizdə isə bugünkü kimi üz qaralığı! Bu, Yəhuda adamlarına, Yerusəlimdə yaşayanlara və Sənə qarşı etdikləri xainlikdən ötrü sürgün etdiyin bütün ölkələrdə, yaxında və uzaqda olan İsraillilərin hamısına aiddir. 8 Ya Rəbb, bizim padşahlarımızın, başçılarımızın və atalarımızın üzü qaradır, çünki Sənə qarşı günah etmişik. 9 Mərhəmət və bağışlamaq isə Xudavənd Allahımıza məxsusdur, çünki biz Ona qarşı üsyan etmişik. 10 Allahımız Rəbbin sözünə qulaq asmadıq, Öz qulları peyğəmbərlər vasitəsilə bizə verdiyi qanunlarına əməl etmədik. 11 Bütün İsraillilər Sənin qanununu pozub azdı, Sənin sözünə qulaq asmadı. Buna görə də Allahın qulu Musanın Qanununda yazılmış lə'nət başımıza yağdı və and yerinə yetdi, çünki Ona qarşı günah etdik. 12 O da başımıza böyük bəla gətirərək bizə və hökm edən hakimlərimizə qarşı dediyi sözləri yerinə yetirdi, çünki Yerusəlimə gələn bəla göylər altında olan heç bir yerə gəlməyib. 13 Musanın Qanununda yazıldığı kimi bütün bu bəla başımıza gəldi. Ancaq biz Allahımız Rəbbə üz tutmadıq ki, təqsirlərimizdən dönək və Onun həqiqətini dərk edək. 14 Rəbb də bu bəlanı başımıza gətirməyə tərəddüd etmədi, çünki Allahımız

---

***8:16*** *– Dan. 9:21; Luk. 1:19,26*

***9:1-2*** *– Yer. 25:11; 29:10*

Rəbb etdiyi bütün işlərində ədalətlidir, ancaq
biz Sənin səsinə qulaq asmadıq. 15 Ey
Allahımız Xudavənd, Sən Öz xalqını Misir
torpağından qüvvətli əlinlə çıxardın və bu
günə qədər davam edən izzət qazandın! Biz
isə günah işlətdik, pislik etdik. 16 Ey
Xudavənd, bütün ədalətli işlərinə görə sənə
yalvarıram, qeyz və qəzəbini Öz şəhərin
Yerusəlimdən, müqəddəs dağından döndər.
Çünki bizim günahlarımızdan və atalarımızın
təqsirlərindən ötrü Yerusəlim və Sənin xalqın
bütün ətraf xalqlar arasında rüsvay oldu. 17 Ey
Allahımız, indi qulunun duasını və
yalvarışlarını eşit. Ey Xudavənd, Öz xatirinə
işıqlı üzünü viran olan müqəddəs məkanına
tərəf çevir. 18 Ey Allahım, qulaq verib eşit,
gözünü açıb bizim viranlıqlarımızı və Sənə
məxsus olan şəhəri gör. Çünki öz
salehliyimizə görə deyil, Sənin böyük
mərhəmətinə görə yalvarışlarımızı Sənin
önünə təqdim edirik. 19 Ey Xudavənd, eşit, ey
Xudavənd, bağışla, ey Xudavənd, diqqət et və
hərəkətə gəl. Ey Allahım, Öz adın naminə
gecikmə, çünki şəhərin və xalqın Sənə
məxsusdur».

### *Yetmiş dəfə yeddiillik dövr barədə vəhy*

20 Mən hələ danışıb duada özümün və
xalqım İsrailin günahlarını e'tiraf edərək
Allahımın müqəddəs dağı üçün yalvarışımı
Allahım Rəbbə təqdim edən zaman – 21 hələ
dua edərkən əvvəl görüntüdə gördüyüm
insana bənzər mələk Cəbrayıl axşam qurbanı
verilən vaxt cəld uçaraq yanıma gəldi. 22 O
məni başa saldı və mənimlə danışıb dedi: «Ey
Daniel! İndi mən gəldim ki, sənə müdriklik və
dərrakə verim. 23 Sənin duanın başlanğıcında
Allah cavab verdi və mən də gəldim ki, onu
sənə çatdırım, çünki Allah səni çox sevir. İndi
isə sözüm barədə düşün və görüntünü bil.

24 Sənin xalqın və müqəddəs şəhərin üçün
yetmiş dəfə yeddiillik dövr tə'yin olunub ki,
asilik bitsin, günah sona çatdırılsın, təqsirlər
üçün kəffarə verilsin, əbədi ədalət gətirilsin,
görüntü və peyğəmbərlik möhürlənsin, Ən
Müqəddəs yer məsh edilsin. 25 Bunu bil və
anla: Yerusəlimi bərpa edib tikmək üçün
verilən fərmanın çıxmasından məsh olunmuş
hökmdara qədər yeddi yeddiillik dövr keçəcək.
Altmış iki yeddiillik dövr ərzində Yerusəlim
yenidən küçələr və xəndəklərlə tikiləcək,
amma bu çətin vaxtlarda olacaq. 26 Altmış iki
yeddiillik dövrdən sonra məsh olunan həlak
olacaq, amma bu özü üçün olmayacaq.
Gələcək hökmdarın xalqı şəhəri və Müqəddəs
yeri viran edəcək. Onun sonu daşqın kimi
olacaq. Müharibə sona qədər davam edəcək.
Viranəliklər olacağına qərar verilib. 27 Həmin
hökmdar yeddiillik bir dövr ərzində çoxları ilə
əhd bağlayacaq, amma yeddiillik dövrün
ortasında qurbanla təqdimi dayandıracaq,
mə'bədin qülləsində viranəlik gətirən iyrənc
şey olacaq və viranəlik gətirən şey onun
tə'yin edilmiş aqibətinə qədər orada qalacaq».

### *Danielə mələyin görünməsi*

10 1 Fars padşahı Kirin hökmranlığının
üçüncü ilində Belteşassar adlanan
Danielə bir vəhy gəldi. Bu vəhy həqiqi idi,
amma anlaşılması çox çətin oldu. Görüntü ilə
izah ediləndə o bu vəhyi dərk etdi.

2 O günlər mən Daniel üç həftə yas tutdum.
3 Üç həftə bitənə qədər mən dadlı yemək
yemədim, ət və şərab dilimə dəymədi və heç
bir ətirli yağ sürtmədim.

4 Birinci ayın iyirmi dördüncü günü mən
böyük Dəclə çayının kənarında idim. 5 Başımı
qaldırıb gördüm ki, qarşımda kətan paltar
geyinmiş, beli xalis qızılla qurşanan bir nəfər
var. 6 Onun bədəni sarı yaqut kimi, üzü
şimşəyə bənzər, gözləri yanar məş'əllər tək,
qolları və ayaqları cilalanmış tunc kimi
işıldayırdı, danışıq səsi kütlənin gurultusu
kimi idi.

7 Yalnız mən Daniel bu görüntünü gördüm,
mənimlə birgə olan adamlar isə bunu görmədi.
Ancaq onların arasına elə vəlvələ düşdü ki,
gizlənmək üçün qaçdılar. 8 Mən tək qaldım.
Bu böyük görüntünü görəndə məndə qüvvət
qalmadı, üzümün siması dəyişdi və taqətdən
düşdüm. 9 Mən onun danışıq səsini eşitdim.
Danışıq səsini eşidəndə dərin yuxuya getdim
və üzüstə düşüb torpağa uzandım. 10 Bu vaxt
mənə bir əl toxundu və məni əllərimlə
dizlərimin üstünə qoydu. 11 O mənə dedi: «Ey
Allahın sevimlisi olan Daniel! Sənə dediyim
sözləri dərk et və ayağa qalx, çünki indi sənin
yanına göndərilmişəm». O bu sözləri deyəndə
mən titrəyərək ayağa qalxdım. 12 O mənə dedi:
«Qorxma, Daniel! Dərrakə qazanmağa meyl
edib, Allahın önündə həlim olduğun üçün ilk

---

***9:21** – Dan. 8:16; Luk. 1:19,26*

***9:27** – Dan. 11:31; 12:11; Mat. 24:15-16; Mrk. 13:14*
***10:5-6** – Vəhy 1:12-15; 2:18; 19:12*

gündən sözlərin eşidildi və mən sənin
sözlərinə görə gəldim. [13] Lakin Fars ölkəsinin
hamisi olan mələk iyirmi bir gün mənə qarşı
dayandı. O zaman baş mələklərdən biri olan
Mikael köməyimə gəldi, çünki mən orada
Fars ölkəsinin hamisi olan mələklə birgə
qalmışdım. [14] İndi gəldim ki, gələcəkdə
xalqının başına nə gələcəyini sənə başa salım,
çünki bu görüntü gələcək dövrə aiddir».

[15] O belə sözlər söyləyərkən mən üzüstə
yerə yıxılıb dinməz qaldım. [16] Bu vaxt bəşər
övladına bənzəyən bir nəfər dodaqlarıma
toxundu. Mən ağzımı açıb danışmağa
başladım və qarşımda durana dedim: «Ağam,
bu görüntüyə görə əzaba qərq oldum və
taqətim qalmadı. [17] Mən qulun ağamla necə
danışa bilərəm? Çünki mənim gücüm tükəndi
və canımda nəfəs qalmadı».

[18] Onda insan simasında olan həmin şəxs
yenə mənə toxunub güc verdi. [19] O dedi: «Ey
Allahın sevimlisi, qorxma, sənə sülh olsun,
möhkəm ol, möhkəm ol!» O mənimlə
danışanda mən qüvvət tapıb dedim: «Ey ağam,
danış, çünki sən mənə güc verdin». [20] O dedi:
«Bilirsənmi mən niyə sənin yanına gəlmişəm?
İndi mən Fars hamisi olan mələklə mübarizə
etməyə qayıdıram. Mən gəlincə Yunan hamisi
olan mələk gələcək. [21] Ancaq əvvəlcə mən
həqiqət Kitabında yazılmış şeyləri sənə
bildirəcəyəm. Onlara qarşı mübarizədə
başçınız Mikaeldən başqa mənə köməkçi olan
heç kəs yoxdur.

11 [1] Mən Midiyalı Daranın
padşahlığının birinci ilində ona dayaq
olmaq və onu qorumaq üçün yanında qaldım.

### *Şimal və cənub padşahlarının müharibəsi*

[2] İndi həqiqəti sənə bildirirəm: Fars
ölkəsində daha üç padşah olacaq.
Dördüncüsünün isə hamısından çox var-
dövləti olacaq və bunun hesabına
qüvvətlənəndə hamını Yunan padşahlığına
qarşı qaldıracaq. [3] Sonra igid bir padşah
gələcək, çox qüdrətli hökmdar olacaq və öz
istədiyini edəcək. [4] Ancaq onun gəldiyi vaxt
padşahlığı dağılıb göylərin dörd küləyinin
səmtinə bölünəcək, onun nəslinə keçməyəcək
və hökmranlığı kimi güclü olmayacaq. Çünki
onun padşahlığı dağılacaq və nəslindən
olmayan adamlara qalacaq.

[5] Cənub padşahı güclənəcək, ancaq
sərkərdələrindən biri ondan daha güclü olacaq,
hökmranlıq edəcək və qüdrətli hökmdar
olacaq. [6] Ancaq bir neçə ildən sonra onlar
razılığa gələcək. Cənub padşahının qızı şimal
padşahının yanına gedəcək ki, sülh sazişi
bağlasın. Amma bu qadın öz mövqeyini
saxlaya bilməyəcək. Şimal padşahının ömrü
də, hakimiyyəti də uzun sürməyəcək. Qadın,
onu müşayiət edənlər, atası və o vaxt ona
dayaq duranlar təslim ediləcək. [7] Lakin o
qadının nəslindən biri cənub padşahının
yerinə keçəcək. O, şimal padşahının ordusuna
hücum edib onun qalasına girəcək. Onlarla
vuruşub üstün gələcək. [8] Hətta onların
allahlarını, tökmə bütlərini qiymətli qızıl və
gümüş qabları ilə birlikdə Misirə çəkib
aparacaq. Bir neçə il ərzində şimal padşahını
rahat buraxacaq. [9] Hərçənd o da cənub
padşahının ölkəsinə hücum edəcək, ancaq öz
torpağına qayıdacaq.

[10] Sonra şimal padşahının oğulları silahlanıb
çoxlu qoşun toplayacaq. Qoşun sel kimi gəlib
keçəcək və irəliləyərək cənub padşahının
qalasına hücum edəcək. [11] Cənub padşahı
qəzəblənib çıxacaq və onunla – şimal padşahı
ilə vuruşacaq. O da böyük bir qoşun çıxaracaq,
lakin bu qoşun cənub padşahına təslim
ediləcək. [12] Qoşun məğlub olanda cənub
padşahının ürəyi qürrələnərək on minlərlə
adamı həlak edəcək, ancaq qələbəsi uzun
sürməyəcək. [13] Çünki şimal padşahı qayıdıb
əvvəlkindən daha böyük qoşun çıxaracaq və
bir neçə ildən sonra tam silahlanmış böyük bir
ordu ilə gələcək.

[14] O zaman bir çoxu cənub padşahına qarşı
çıxacaq. Görüntü yerinə yetsin deyə sənin
xalqından qoluzorlular da ayağa qalxacaq,
ancaq uğur qazanmayacaq. [15] Şimal padşahı
gəlib hasarlara torpaq yığaraq istehkamlı
şəhəri alacaq. Cənubun qüvvələri onun
qarşısında tab gətirməyəcək, seçmə qoşunu da
müqavimət göstərə bilməyəcək. [16] İstilaçı
şimal padşahı istədiyini edəcək və heç kəs
onun qarşısında dura bilməyəcək. Gözəl
ölkədə bir müddət qalacaq və oranı viran
etməyə qadir olacaq.

[17] Şimal padşahı ölkəsinin bütün qüvvələri
ilə birgə gəlməyi qərara alacaq. Sülh sazişinin
şərtlərini təklif edib yerinə yetirəcək və cənub
padşahlığını məhv etmək üçün ona gənc bir
arvad verəcək, ancaq hiyləsi baş tutmayacaq

---

***10:13,21*** – *Vəhy 12:7*

və ona kömək olmayacaq. 18 Sonra nəzərini
sahil ölkələrinə çevirəcək və onların çoxunu
alacaq. Ancaq bir sərkərdə onun etdiyi təhqirə
son qoyacaq, hətta təhqirini öz başına
gətirəcək. 19 Sonra nəzərini öz ölkəsinin
qalalarına tərəf çevirəcək. Ancaq büdrəyib
yıxılacaq və ondan bir əsər qalmayacaq.
20 Onun yerinə keçən padşah padşahlıq izzəti
üçün öz vergiyığanını göndərəcək, ancaq az
müddət sonra o da həlak olacaq. Amma bu,
üsyan yaxud müharibə zamanı olmayacaq.

### ***Qəddar şimal padşahı***

21 Onun yerinə padşahlıq izzətinə layiq
olmayan namərd bir adam keçəcək. O
gözlənilmədən gəlib yaltaqlıqla hakimiyyəti
qəsb edəcək. 22 Sel kimi istilaçı qoşunlar onun
önündən silinib-süpürüləcək, onlar da, əhdin
başçısı da məhv olacaq. 23 Onunla ittifaq
bağlandıqdan sonra o hiylə işlədəcək və gəlib
kiçik bir millətlə güc qazanacaq. 24 O
gözlənilmədən ən münbit torpaqları istila
edəcək, atalarının və babalarının görmədiyi
işləri görəcək. Talan və qarət olunmuş mal-
dövləti adamlarına paylayacaq və qalalara
hücum etmək niyyətində olacaq, amma bu,
uzun sürməyəcək.

25 Sonra güc və cəsarət toplayıb böyük bir
qoşunla cənub padşahına qarşı çıxacaq.
Cənub padşahı da böyük və çox güclü bir
ordu ilə döyüşə girəcək, ancaq müqavimət
göstərə bilməyəcək, çünki ona qarşı qəsd
quracaqlar. 26 Onunla bir süfrədə oturanlar onu
məhv edəcək. Ordusu silinib-süpürüləcək və
çoxlu tələfat olacaq. 27 Bu padşahların hər
ikisinin ürəyində pislik olacaq və bir süfrə
arxasında yalan danışacaqlar. Ancaq heç bir
şey baş tutmayacaq, çünki onların sonu
müəyyən vaxtda olacaq.

28 Şimal padşahı böyük sərvətlə öz ölkəsinə
qayıdacaq. Onun müqəddəs əhdə qarşı pis
niyyəti olacaq və hərəkətə gəlib öz ölkəsinə
dönəcək. 29 Müəyyən bir vaxt yenə cənubu
istila edəcək, ancaq nəticə əvvəlki kimi
olmayacaq. 30 Kittim[4] gəmiləri ona qarşı
gələcək və o ruhdan düşüb geri dönəcək.
Qəzəblənib müqəddəs əhdə qarşı çıxacaq və
yenə müqəddəs əhdə xəyanət edənlərlə yaxşı
davranacaq. 31 Onun göndərdiyi qoşunlar
qalxıb qalanı – müqəddəs məkanı
murdarlayacaq, daimi yandırma qurbanını
dayandıracaq və viranəlik gətirən iyrənc şeyi
qoyacaqlar. 32 O, əhdə xəyanət edənləri
yaltaqlıqla yoldan azdıracaq, lakin öz Allahını
tanıyan xalq qüvvətlənib hərəkətə gələcək.
33 Xalqın ağıllı adamları çoxunu öyrədəcək,
ancaq bir müddət qılıncla öldürüləcək,
yandırılacaq, əsir düşəcək və qarət ediləcəklər.
34 Onlar məğlub olanda bir qədər kömək
alacaqlar, ancaq çox adam riyakarcasına
onlara qoşulacaq. 35 Ağıllı adamlardan bə'zisi
həlak olacaq ki, qalanları axır zamana qədər
paklanıb təmizlənsin və ləkəsiz olsun. Çünki
axır zaman yenə də müəyyən vaxtda olacaq.

### ***Şimal padşahının məğrurluğu***

36 Bu padşah istədiyini edəcək,
qürurlanaraq özünü bütün allahlardan üstün
sayacaq, allahlar Allahına qarşı eşidilməmiş
küfr söyləyəcək və Allahın qəzəbi icra
olunana qədər uğur qazanacaq, çünki
müəyyən edilən şey yerinə yetməlidir. 37 Heç
bir allaha – nə öz atalarının allahlarına, nə də
qadınların sevdiyi ilahəyə ehtiram
göstərməyəcək, çünki özünü bütün
allahlardan üstün sayacaq. 38 Ancaq onun
əvəzinə qalalar allahını izzətləndirəcək,
atalarının tanımadığı bir allahı qızıl, gümüş,
qiymətli daşlar və gözəl əşyalarla
izzətləndirəcək. 39 O, yad allaha ümid etməklə
ən güclü qalalara hücum edəcək. Onu qəbul
edənləri həddindən artıq izzətləndirəcək,
çoxlu adama başçı qoyacaq və mükafat olaraq
torpağı bölüşdürəcək.

40 Axır zamanda isə cənub padşahı onunla
vuruşacaq. Şimal padşahı öz döyüş arabaları,
atlıları və çoxlu gəmiləri ilə qasırğa kimi onun
üstünə hücum çəkəcək, müxtəlif ölkələri istila
edəcək və onlardan sel kimi keçəcək. 41 Gözəl
ölkəyə də girəcək. Çoxlu ölkə işğal olunacaq,
ancaq Edom, Moav və Ammonluların
başçıları onun əlindən qurtaracaq. 42 O,
müxtəlif ölkələrə zərbə vuracaq, Misir ölkəsi
də xilas ola bilməyəcək. 43 Misirin qızıl-
gümüş xəzinələrini və bütün sərvətlərini ələ
keçirəcək. Liviyalılar və Kuşlular da ona tabe
olacaq. 44 Ancaq şərqdən və şimaldan gələn

---

[4] **11:30** *Kittim* – dar mə'nada Kipr adası, geniş mə'nada isə Aralıq dənizi xalqları, xüsusilə Romalılar nəzərdə tutulur.

***11:31*** *– Dan. 9:27; 12:11; Mat. 24:15-16; Mrk. 13:14*
***11:36*** *– 2Sal. 2:4*
***11:36*** *– Vəhy 13:5-6*

xəbərlər onu narahat edəcək. Bir çoxlarını
öldürüb məhv etmək üçün böyük qızğınlıqla
yola düşəcək. [45] Öz padşah çadırlarını dənizlə
gözəl müqəddəs dağın arasında quracaq.
Ancaq onun aqibəti çatacaq və heç kəs ona
kömək edə bilməyəcək.

### *Axır zaman*

12 [1] O dövrdə xalqına mənsub
olanların dayağı baş mələk Mikael
qalxacaq və sənin millətin yaranandan o vaxta
qədər olmamış əzablı dövr gələcək. O dövrdə
sənin xalqından kitabda adı yazılmış olan hər
kəs xilas olacaq. [2] Torpağın altında yatanların
çoxu əbədi həyat, bə’zisi isə əbədi xəcalət və
rüsvayçılıq üçün oyanacaq. [3] Ağıllı adamlar
göy qübbəsinin parıltısı kimi, çoxunu
salehliyə döndərənlər ulduzlar kimi əbədi və
daim parlayacaq. [4] Ancaq, sən ey Daniel, axır
zamana qədər bu sözləri sirr saxla və bu kitabı
möhürlə. Çox adam özünü ora-bura vuracaq
və bilik artacaq».

[5] Onda mən Daniel gördüm ki, başqa iki
adam – biri çayın bu tayında, biri isə çayın o
tayında durub. [6] Bir adam çayın suları
üzərində olan kətan geyinmiş adama dedi:
«Bu əcaib hadisələrin sonu nə vaxt olacaq?»
[7] Mən eşitdim ki, çayın suları üzərində olan
kətan geyinmiş adam sağ və sol əlini göyə
qaldırıb Əbədi Yaşayanın adına and içdi: «Bir
dövr, iki dövr və yarım dövr keçəcək,
müqəddəs xalqın gücü tamamilə tükənəndən
sonra bütün bunlar qurtaracaq».

[8] Mən bunu eşitdim, ancaq başa düşməyib
soruşdum: «Ey ağam, bəs bunların nəticəsi
necə olacaq?» [9] O cavab verdi: «Get, ey
Daniel. Çünki bu sözlər axır zamana qədər
sirr olacaq və möhürlü qalacaq. [10] Çoxları
paklanıb ləkəsiz və təmiz olacaq, pis adamlar
isə şər işlərindən dönməyəcək. Pis
adamlardan heç biri bu sözləri başa
düşməyəcək, ağıllı adamlar isə başa düşəcək.
[11] Daimi yandırma qurbanlarının
dayandırıldığı və viranəlik gətirən iyrənc
şeyin qoyulduğu vaxtdan min iki yüz doxsan
gün keçəcək. [12] Gözləyib min üç yüz otuz beş
günə yetişən nə bəxtiyardır! [13] Sən isə öz
aqibətinə qədər yaşa, çünki ölüb rahat
olacaqsan və axirət günü dirilib qismətini
alacaqsan».

***12:1*** *– Vəhy 12:7*
***12:1*** *– Mat. 24:21; Mrk. 13:19; Vəhy 7:14*
***12:2*** *– Mat. 25:46; Yəh. 5:29*
***12:4*** *– Vəhy 22:10*
***12:7*** *– Vəhy 10:5*
***12:7*** *– Dan. 7:25; Vəhy 12:14, 13:5*
***12:10*** *– Vəhy 22:11*
***12:11*** *– Dan. 9:27; 11:31; Mat. 24:15-16; Mrk. 13:14*